# Haylar ərmən, Hayastan Ərməniyyə deyil!



**Balkanlardan Yaxın Şərqə, oradan isə Kiçik Asiya və İran yaylası ərazisinə yayılmış ermənilərin məqsədli şəkildə Qafqaza gətirilib türk-müsəlman əhalinin əzəli torpaqlarında yerləşdirilməsi, bu ərazidə davamlı soyqırımı və deportasiyalar yolu ilə onlara dövlət yaradılması gəlmə hay-qriqorianların xarakterində haqsızlıq, zorakılıq və cəzasızlıq kompleksi formalaşdırmışdır. Azərbaycan xalqına qarşı törətdikləri cinayətlərə görə cəza almayacaqlarına əminlikləri onları yeni-yeni tarixi cinayətlərə sürükləmişdir.**

Bu deportasiya və soyqırımlarını, təcavüz və işğalları müxtəlif millətlərin tarixçiləri, siyasətçiləri, tanınmış ziyalıları zaman-zaman pisləsə də, onun qarşısı heç vaxt alınmamış və ya mümkün olmamışdır.

Bir xalqa qarşı 2 əsrdən artıq müddətdə, həm də eyni ssenari, eyni metod və üsullarla belə antiinsani mübarizə aparılması tarixdə çox az baş vermiş milli ədalətsizlik və təcavüz nümunəsidir. Ən dözülməzi də odur ki, onillər, yüzillər keçsə də, bu tarixi cinayətlərə uzun müddət siyasi və hüquqi qiymət verilməmişdir.

Qərbi azərbaycanlıların qaçqınlıq tarixi 1801-ci ildən – çar Rusiyasının Şərqi Gürcüstanı işğal etməsindən başlanır. Həmin vaxt rus qoşunları Qərbi Azərbaycanın Loru-Pəmbək və Şəmşəddil bölgələrinə hücum etmiş və bu bölgələrin türk əhalisinə qanlı divan tutmuşdur. 1801-ci il iyulun 13-də erməniəsilli çar general-mayoru Lazerev Qafqaz qoşunlarının komandanı Knorrinqə göndərdiyi raportunda Pəmbək əyalətinin 14 kəndindən 5–6 min nəfər türk əhalinin bölgəni tərk edərək İrəvan xanlığı ərazisinə sığındığını xəbər verirdi.

O vaxtdan bu yana imperialist dairələrin himayəsi və vətənsiz ermənilərin səfərbər edilməsi ilə qədim Azərbaycan torpaqlarından türk-müsəlman əhalinin deportasiyası və soyqırımı davam etmiş, soydaşlarımızın min illər boyu yaşadıqları Qərbi Azərbaycan torpaqlarında Ermənistan adlı oyuncaq dövlət yaradılmışdır.

Bu tarixi cinayətlərə qarşı tam səfərbər oluna, onlara siyasi və hüquqi qiymət verə bilməməyimizin subyektiv səbəbləri ilə yanaşı, bir zəruri obyektiv səbəbi də olmuşdur. Bu, Azərbaycanın həmin dövrdə dövlət müstəqilliyini itirməsi, öz haqlarına sahib çıxa bilməməsi nəticəsində mümkün olmuşdur.

Doğrudur, 1918–1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə ermənilərin Cənubi Qafqazda xalqımıza qarşı törətdiyi soyqırımlarını araşdırmaq məqsədilə Fövqəladə İstintaq Komissiyası yaradılmış və qısa müddətdə xeyli iş görmüşdür. Lakin bütün bu məsələləri siyasi və hüquqi qiymət müstəvisinə çıxarmağa Azərbaycan Xalq Cümhuriyyətinin, sadəcə, ömrü çatmamış və görülən işlər yarımçıq qalmışdır.



Lakin bəzən tarixin yarımçıq qoyduğu işləri şəxsiyyətlər başa çatdırır. Bir çox taleyüklü məsələlər kimi, azərbaycanlıların deportasiyasına və soyqırımına tarixi-siyasi qiymət verilməsi məsələsinin də altından iyirminci yüzildə Azərbaycanın ən böyük tarixi şəxsiyyəti olan Prezident Heydər Əliyev imza atmışdır.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusunun 18 dekabr 1997-ci ildə imzaladığı “1948–1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” və 26 mart 1998-ci ildə imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” tarixi fərmanları ilə ulu öndər Heydər Əliyev azərbaycanlıların deportasiyasına və soyqırımına tarixi-siyasi qiymətin müəllifi olmuşdur.

Həmin fərmanlar müvafiq məsələlərin öyrənilməsi üçün Azərbaycan elmi-ictimai fikrinə güclü təkan vermişdir. Məsələnin müxtəlif aspektləri ilə bağlı davamlı, silsilə araşdırmalar aparılmış, məqalə və kitablar yazılaraq, filmlər çəkilərək, disklər hazırlanaraq müxtəlif dillərdə yayılmışdır. Bu gün Azərbaycanın elmi fikri qarşısında duran mühüm məsələlərdən biri və birincisi, həmişə olduğu kimi, yenə də erməni tarixi saxtalaşdırmalarının cavablandırılması və ifşa edilməsidir.

Bu parazit xarakterli toplum 5 əsrdir ki, kilsələrin küncünə çəkilib, özlərinə saxta tarix yazır, yenə gözləri doymur, bu tarixə hər dəfə yeni əlavələr edir, xəyali ərazilərini dünyanın dörd tərəfinə doğru hey uzadır, qədimliklərini dünyanın yaranışına qədər aparıb çıxarır. Artıq saxta tarix yaratmaq erməni xəstəliyinin simptomlarından birinə çevrilmişdir. İş o yerə gəlib çatmışdır ki, təkcə tarixçilər yox, az qala, bütün xalq saxta tarixin diqtəsi ilə yatıb-durur. Hətta erməni dilinin və xalqının 8-9 min illik tarixi olduğunu iddia edirlər.

Vaxtilə maarifçi-ədəbiyyatşünas Firidun bəy Köçərli ermənilərin bu sayıqlamalarına diqqət çəkərək yazmışdı ki, hay tarixçilərinin fikrincə, Nuh peyğəmbər gəmidən çıxanda əvvəlcə İrəvan şəhərinin yeri onun gözünə sataşdı və sevinclə dedi: “Yerevume”, yəni ermənicə: görünür. Guya, “Yerevan” şəhər adının bünövrəsi belə qoyulmuşdur. Halbuki, tarixi Azərbaycan qalası İrəvan şəhəri 1936-cı ildən Yerevan adlandırılmağa başlanmışdır.

Bəla burasındadır ki, Azərbaycan torpaqlarında məskunlaşmış hay-qriqorian toplumu özlərinə heç vaxt olmamış keçmiş uyduraraq saxta erməni tarixi konsepsiyası formalaşdırmışlar. Yaxın keçmişdə Qafqazda hakim olmuş rus və sovet imperialist ideologiyaları ardıcıl olaraq bu saxta konsepsiyanı öz maraqlarına uyğun olaraq hilməyə etmiş və dünyaya da yaymışdır. Məqsəd bu ərazinin, guya, qədimdən xristian torpağı olduğunu iddia etməklə onun yerli türk-müsəlman əhalisini ermənilərin əli ilə sıxışdırmaq, əritmək və yox etmək olmuşdur.

Lakin indi dünya dəyişib, azadlığa çıxmış, taleyinə sahib olmuş xalqlar tarixlərini təzədən araşdırır, qadağan olunmuş, gizlədilmiş mənbə və sənədləri ortaya qoyur. Azərbaycan xalqı da ermənilərin bütün yalanlarını üzə çıxarır. Məlum olur ki, bu başabəla, oğruxislət və haramxor toplum nəinki azərbaycanlıların tarixini, mədəniyyətini, ədəbiyyatını, musiqisini, mətbəxini, adət-ənənəsini, folklorunu, abidələrini, toponimlərini, hətta adını belə mənimsəmişdir.

Daxildə özlərinə hay, dillərinə hay dili, əcdadlarına Hayk, atalarına Hayrik, vətənlərinə Hayrenik, ölkələrinə Hayastan deyən bu etnik toplum necə olur ki, dünyaya özünü Qərbi Azərbaycanın qədim türk-qıpçaq əsilli tayfası olmuş ermənlərin adı ilə “erməni”, özünə vətən etdiyi ərazini isə həmin tayfanın məskunlaşdığı Ərməniyyənin adı ilə “Armeniya” kimi təqdim edir? Bu saxtakarlıqla onlar özlərini Qərbi Azərbaycanın yerli əhalisi kimi qələmə verirlər. Axı, haylar ərmən, Hayastan isə Ərməniyyə deyil!

**Əziz ƏLƏKBƏRLİ,**
**Qərbi Azərbaycan İcmasının sədri, Milli Məclisin deputatı**